# Sosial məişət xidmətlərinin göstərilməsi

## Evdə (səyyar) sosial xidmət nədir?

Evdə (səyyar) sosial xidmət - əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri ilə eyni yaşayış məntəqəsində yaşamayan və sosial xidmətə ehtiyacı olan tənha ahıllara, ahıl ər-arvadlara, əlilliyi olan şəxslərə, xəstəliyin terminal (son) mərhələsində olan şəxslərə qanunvericilikdə müəyyən edilmiş qaydada göstərilən xidmətdir.

**Şəxsə (ailəyə) qulluq və kömək göstərə biləcək qohumlar** dedikdə - əmək qabiliyyətli babalar, nənələr, valideynlər, övladlığa götürənlər, doğma və ögey qardaşlar və bacılar, ər-arvad, uşaqlar, övladlığa götürülənlər və nəvələr nəzərdə tutulur.

## Kimlər ahıl hesab edilir?

Sosial xidmət haqqında Azərbaycan Respublikasının Qanununa əsasən yaşı 70-ə çatmış şəxslər ahıl hesab edilir.

## Evdə (səyyar) sosial xidmət göstərilməsi üçün müraciət edilməsi

Əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri ilə eyni yaşayış məntəqəsində yaşamayan və sosial xidmətə ehtiyacı olan tənha ahıllar, ahıl ər-arvadlar, əlilliyi olan şəxslər, xəstəliyin terminal (son) mərhələsində olan şəxslər evdə (səyyar) sosial xidmət göstərilməsi üçün yaşayış yeri üzrə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin struktur bölmələrinə, "DOST" mərkəzlərinə və ya "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinə" ərizə ilə müraciət edirlər.

## Müraciətə baxılması və cavablandırılması

Sosial xidmətin göstərilməsi barədə müraciət müvafiq Quruma, Mərkəzə və ya "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinə" daxil olduğu gündən sonra, 10 (on) iş günü müddətində sosial işçi tərəfindən sosial xidmətə olan tələbatın qiymətləndirilməsi və müəyyənləşdirilməsi həyata keçirilir.

Bundan əlavə, şəxslərə qulluq və kömək göstərə biləcək qohumların olmamasının müəyyən edilməsi üçün yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri və sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərinə, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi yanında Əhalinin Dövlət Reyestri Xidmətinə (şəxsin valideynləri, özü və övladları barədə) və digər aidiyyəti qurumlara sorğu göndərilir, zəruri məlumatlar olmadıqda yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri və sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin, bələdiyyələrin, mənzil istismar sahələrinin nümayəndələrinin, çoxmənzilli binaları idarə edən şəxslərin, eləcə də şəxsin qonşularının iştirakı ilə şəxsin qohumları barədə sosial işçi tərəfindən akt tərtib olunur.

Sorğunun və ya aktın nəticələri, eyni zamanda sosial xidmətə olan tələbatın qiymətləndirilməsi əsasında şəxsin sosial xidmətə ehtiyacının və şəxsə qulluq və kömək göstərə biləcək qohumların olub-olmamasını özündə əks etdirən hesabat hazırlanır.

Sosial işçi tərəfindən hesabatın təqdim edildiyi gündən sonra, 5 (beş) iş günü müddətində yerli qurum və ya mərkəz tərəfindən sosial xidmətin göstərilməsi və ya sosial xidmətin göstərilməsindən imtina edilməsi barədə qərar qəbul olunur.

## Evdə (səyyar) göstərilən sosial xidmətlər ödənişlidirmi?

Evdə (səyyar) sosial xidmət ödənişsiz, qismən ödənişli və tam ödənişli əsaslarla göstərilir. Çətin həyat şəraitində olan şəxslərə (ailələrə) evlərdə sosial xidmət zəmanət verilmiş həcmdə ödənişsiz, sosial xidmətin həcmi zəmanət verilmiş həddi keçdiyi halda, sosial xidmətlər qismən ödənişli şərtlərlə göstərilir. Sosial xidmətin növü sosial xidmətin zəmanət verilmiş həcminə aid olmadığı halda, sosial xidmət tam ödənişli şərtlərlə göstərilir. Qismən ödənişli və tam ödənişli sosial xidmətlər göstərilərkən tərəflər arasında sosial xidmət müqaviləsi bağlanır.

Evdə (səyyar) göstərilən ödənişsiz xidmətlər

Aşağıdakı 1 nömrəli cədvəldə ödənişsiz sosial xidmətlər qeyd olunmuşdur

**Cədvəl 1**

| **Xidmətlər** | **Xidmətin sayı (aylıq)** | **Xidmətin müddəti (manatla)** |
|---|---|---|
| Yemək hazırlanmasına kömək etmək (o cümlədən, dietik yeməklər), özünə qulluq edə bilməyən xəstələrin yedizdirilməsi və qabların yuyulması | 8 dəfə | 1 saat 20 dəq. |
| Zəruri ərzaq, sənaye və məişət mallarının alınması | 4 dəfə | 30 dəq. |
| Mənzillərin yığışdırılması və təmizlənməsi | 4 dəfə | 1 saat |
| Yataq və geyim əşyalarının yuyulması, və ütülənməsi | 4 dəfə | 1 saat 30 dəq. |

| | | |
|---|---|---|
| Mənzil pulunun və digər kommunal xərclərin | 1 dəfə | 30 dəq. |
| Mənzil pulunun və digər kommunal xərclərin ödənilməsinin təşkil edilməsi | 1 dəfə | 30 dəq. |
| İstiliyə,yanacağa, təmirə olan ehtiyacların ödənilməsi məqsədi ilə aidiyyəti təşkilatlarla əlaqə saxlanılması | Xidmət müddətində | |
| Evə həkimin çağırılması | Xidmət müddətində | |
| Həkimin təyinatı ilə aptekdən dərman alınması | Xidmət müddətində | |
| Sosial xidmətə götürülmüş vətəndaş vəfat etdikdə, onun dəfni ilə bağlı məsələlərin həllinə köməklik göstərilməsi | Xidmət müddətində | |

**Evdə (səyyar) qismən ödənişli və tam ödənişli şərtlərlə sosial xidmətin göstərilməsi**

Aşağıdakı 2 nömrəli cədvəldə qismən ödənişli sosial xidmətlər göstərilmişdir

**Cədvəl 2**

| **Xidmətlər** | **Xidmətin müddəti**<br>*(dəqiqə ilə)* | **Xidmət haqqının məbləği**<br>*(manatla)* |
|---|---|---|
| Yemək hazırlanmasına kömək etmək (o cümlədən, dietik yeməklər), özünə qulluq edə bilməyən xəstələrin yedizdirilməsi və qabların yuyulması | 60 | 1.00 |
| Zəruri ərzaq, sənaye və məişət mallarının alınması | 30 | 0.45 |
| Mənzillərin yığışdırılması və təmizlənməsi (hər 10 $m^2$ üçün ) | - | 0.85 |
| Yataq və geyim əşyalarının yuyulması və ütülənməsi | 60 | 1.00 |
| Həkim müayinəsinə aparılıb-gətirilməsi | - | 1.50 |

**Aşağıdakı 3 nömrəli cədvəldə tam ödənişli sosial xidmətlər göstərilmişdir**

| **Xidmətlər** | **Xidmətin müddəti**(dəqiqə ilə) | **Xidmət haqqının məbləği** (manatla) |
|---|---|---|
| Şəxsin çimizdirilməsinə, saçlarının daranmasına yardım edilməsi (hamamda su qızdırıcı sistemi olarsa) | 40 | 3.00 |
| Şəxsin çimizdirilməsinə, saçlarının daranmasına yardım edilməsi (hamamda su qızdırıcı sistemi olmadıqda) | 50 | 5.00 |
| Həyətyanı sahənin nizama salınması (hər 50 $m^2$ üçün ) | 25 | 3.00 |
| Paltarın xırda təmiri | 10 | 1.00 |
| Yataq və geyim əşyalarının camaşırxanaya, kimyəvi təmizləmə məntəqəsinə (əgər camaşırxana və kimyəvi təmizləmə məntəqəsi varsa) aparılıb- gətirilməsi | 40 | 2.00 |

## Evdə (səyyar) göstərilən sosial xidmətin dayandırılması

Aşağıdakı hallarda evdə (səyyar) sosial xidmət göstərilməsi dayandırılır

Qismən ödənişli və tam ödənişli sosial xidmətin göstərilməsi ilə əlaqədar sosial xidmət müqaviləsində nəzərdə tutulan hallarda;

Sosial xidmətə ehtiyacı olan şəxs əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri ilə eyni yaşayış məntəqəsində yaşamağa başladıqda;

Tənha ahıllar, əlilliyi olan şəxslər dövlət sosial xidmət müəssisələrinə yerləşdirildikdə;

Sosial xidmət nədir?

Sosial xidmət – çətin həyat şəraitində yaşayan şəxsin (ailənin) sosial problemlərinin aradan qaldırılması və ictimai həyatda digər insanlarla bərabər iştirak imkanlarının yaradılması istiqamətində həyata keçirilən kompleks tədbirlər

Sosial xidmətin məqsədi nədir?

Sosial xidmətin məqsədi vətəndaşların həyat səviyyəsini ağırlaşdıran, sosial-psixoloji vəziyyətini çətinləşdirən, cəmiyyətdən təcrid olunmasına gətirib çıxaran halların qarşısını almaqdan, çətin həyat şəraitinin əmələ gəldiyi hallarda ehtiyacı olan şəxslərə sosial xidmətin göstərilməsini təmin etməkdən ibarətdir.

Sosial xidmətin formaları aşağıdakılardır:

evdə (səyyar) sosial xidmət;
yarımstasionar (günərzi) sosial xidmət;
stasionar sosial xidmət;
sosial-məsləhət yardımı.
Sosial xidmətin növləri

Təyinatından asılı olaraq sosial xidmətlər aşağıdakı növlərə bölünür:

sosial-məişət xidmətləri – şəxslərin (ailələrin) məişət şəraitinin, yaşayış vəziyyətinin yaxşılaşdırılmasına yönəlmişdir;
tibbi-sosial xidmətlər – şəxslərin sağlamlıq vəziyyətinin yaxşılaşdırılmasına yönəlmişdir;
sosial-psixoloji xidmətlər – şəxslərin cəmiyyətə adaptasiyası məqsədilə psixoloji vəziyyətinin reabilitasiyasını nəzərdə tutur;
sosial-pedaqoji xidmətlər – yetkinlik yaşına çatmayanların inkişafındakı geriliklərin və davranışındakı pozuntuların profilaktikasına, onlarda müsbət maraqların yaranmasına, o cümlədən asudə vaxtlarının təşkilinə və ailədə tərbiyəsinə dəstəyə yönəlmişdir;
sosial-iqtisadi xidmətlər – şəxslərin həyat səviyyəsinin qorunmasına və möhkəmlənməsinə yönəlmişdir;
sosial-hüquqi xidmətlər – hüquqi yardım göstərilməsi, şəxslərin hüquqlarının qorunmasına yönəlmişdir;
palliativ xidmətlər – müalicəsi mümkün olmayan şəxslərin və onların ailə üzvlərinin fiziki, psixoloji, mənəvi və digər problemlərinin müəyyən edilməsi, qiymətləndirilməsi və bu şəxslərə yardımın göstərilməsinə yönəlmişdir.

2) Şəxs (ailə) aşağıdakı əsaslardan azı biri olduqda çətin həyat şəraitində hesab edilir:

uşaqların valideynlərini itirməsi və ya valideyn himayəsindən məhrum olması;
uşaqların sağlamlıq imkanlarının məhdud olması;
yetkinlik yaşına çatmayanların baxımsızlığı və ya sosial təhlükəli vəziyyətdə olması;
xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyətinin, habelə şəxsə (ailəyə) qulluq və köməklik göstərə biləcək əmək qabiliyyətli qohumların və ya qanuni nümayəndələrin olmaması. Xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti olmayan şəxslərə qulluq və köməklik göstərə biləcək qohumların olmaması müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir;
şəxsin ictimai təhlükəli xəstəliyə tutulmasına görə həyat fəaliyyətinin məhdudlaşması;
insan alverinin qurbanı olması;
məişət zorakılığından zərər çəkməsi;
müəyyən yaşayış yerinin olmaması;
valideynlərini itirməsi və ya valideyn himayəsindən məhrum olmasına görə sosial xidmət müəssisələrində yaşamış şəxslərin, həmin müəssisələri tərk etdikdən sonra yaşayış yerinin olmaması;
şəxsin sosial yadırğama (dezadaptasiya) və sosial məhrumiyyət (deprivasiya) vəziyyətində olması.

Sosial xidmət göstərilməsi ilə əlaqədar sosial işçilərin vəzifələri aşağıdakılardır:

sosial xidmətin göstərilməsini, sosial xidmətə olan tələbatın qiymətləndirilməsi və müəyyənləşdirilməsini həyata keçirmək, sosial xidmətə götürülən şəxsə (ailəyə) sosial xidmət göstərilməsinə dair fərdi planı tərtib etmək;
çətin həyat şəraitində olan şəxsin (ailənin) problemlərinin həllinə və aradan qaldırılmasına yardım etmək;
sosial xidmətlərin göstərilməsi sahəsində qanunvericiliyə və peşə etikası normalarına əməl etmək;

sosial xidmətlərin sosial xidmətin göstərilməsi üzrə standartların tələblərinə uyğun olmasını təmin etmək;
xidmət göstərdikləri şəxslərin hüquqlarına, şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;
sosial xidmət göstərdikləri şəxslərə münasibətdə ayrı-seçkiliyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara yol verməmək;
sosial xidmət göstərdikləri şəxsləri hüquqi, sosial, tibbi və digər təminatlar, qanunda təsbit olunmuş sosial müdafiə tədbirləri və çətin həyat şəraitində olan şəxsin (ailənin) rifahının yaxşılaşdırması üçün mövcud olan imkanlar haqqında məlumatlandırmaq;
öz vəzifələrini yerinə yetirərkən əldə etdikləri məlumatların konfidensiallığını təmin etmək;

## Himayədar Ailə

“Uşaqların valideyn himayəsindən məhrum olmasının qarşısının alınması və hüquqlarının müdafiəsinin gücləndirilməsi ilə bağlı bəzi məsələlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 15 fevral tarixli 1599 nömrəli Fərmanı ilə 2022-ci ilin noyabrın 1-dən etibarən “Himayədar ailə” sahəsində səlahiyyətlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilir. Azərbaycan Respublikasının Ailə Məcəlləsinin tələbinə uyğun olaraq Himayədar ailə aşağıdakı qaydada həyata keçirilir.

Himayədar ailə olmaq istəyən şəxslər elektron qaydada aşağıdakı kimi müraciət edə bilər:

Himayədar valideyn olmaq istəyən şəxs(lər) və onunla birgə yaşayan 18 yaşdan yuxarı olan şəxs(lər) ilə birlikdə notariat orqanına müraciət edilir və himayədar ailə ilə bağlı ərizə alınır.
Notarial qaydada təsdiq edilən ərizə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin “Elektron notariat” informasiya sistemi vasitəsilə altsistemə ötürüldükdən sonra himayədar valideyn olmaq istəyən şəxs tərəfindən himayədar ailə ilə bağlı müraciət etmək üçün Nazirliyin “e-sosial.az” internet portalında “Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığa götürmə altsistemi”ndə qeydiyyatdan keçməklə şəxsi kabinet yaradılır.

Şəxsi kabineti yaratmaq üçün istifadəçilər ASAN Loginə sahib olmalıdırlar. ASAN Login əldə etmək üçün lazımdır:

Vətəndaş asan mobil nömrə almaq üçün müraciət edir (azercell, bakcell, nar mobile) və yaxud öz adına olan mobil nömrənin asan dublikatını çıxardır;
Həmin asan nömrə ilə bağlı müqaviləsi və şəxsiyyət vəsiqəsi ilə birgə ASAN Xidmət mərkəzində Vergilər pəncərəsinə yaxınlaşır və asan imza sertifikatı əldə edir;
E-sosial.az saytına daxil olub, asan imza ilə “qeydiyyatdan keç” bölməsini seçir;
Asan nömrəyə SMS vasitəsilə gələn kodu daxil etməklə qeydiyyatdan keçir.

Şəxsi kabineti yaradaraq qeydiyyatdan keçən şəxslər tərəfindən aşağıda göstərilən xəstəliklərin olub-olmamasına dair (psixiatrın rəyi də daxil olmaqla) himayədar valideyn(lər)in (və onunla birgə eyni ünvanda yaşayan şəxslərin) əyani tibbi müayinəsi əsasında əldə edilən sənədləri altsistemə daxil edirlər.

Himayədar ailə olmaq istəyən şəxs(lər) və onlarla birgə eyni ünvanda yaşayan şəxs(lər) tibbi müayinələrdən keçmək üçün ölkə üzrə müəyyən edilmiş aşağıdakı tibb müəssisəsində müayinələrdən keçə bilərlər:
Bakı şəhər qeydiyyatında olan şəxslər - 5 nömrəli şəhər Poliklinikasında;
Himayədar ailə olmaq istəyən şəxs(lər)lə birgə eyni ünvanda yaşayan 18 yaşına qədər olan şəxslər - Akademik M.Ə.Mirqasımov adına Respublika Uşaq Kliniki Xəstəxanası
Digər şəhər/rayon qeydiyyatında olan şəxslər isə - Akademik M.Ə.Mirqasımov adına Respublika Kliniki Xəstəxanası, “Gəncə Şəhər Birləşmiş Xəstəxanası” PHŞ, “Lənkəran Rayon Mərkəzi Xəstəxanası” PHŞ, “Şəki Rayon Mərkəzi Xəstəxanası” PHŞ-də.

Himayədar ailə üç mərhələdə həyata keçirilir:

1. Himayədar ailə olmaq istəyən şəxsin (şəxslərin) uçota alınması;
2. Himayədar ailəyə verilmənin uşağın mənafeyinə uyğunluğunun müəyyənləşdirilməsi;
2.1. Himayədar valideyn olmaq istəyən şəxslə (şəxslərlə) müsahibənin aparılması və həmin şəxsin (şəxslərin) maddi-məişət şəraitinin müayinəsi;
2.2. Himayədar ailə olmaq istəyən şəxsin (şəxslərin) təlimlərə cəlb edilməsi;
2.3. Himayədar ailə olmaq istəyən şəxsə (şəxslərə) uyğun uşağın və himayədar ailəyə veriləcək uşağa uyğun himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) seçilməsi.
3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə himayədar valideyn olmaq istəyən şəxs (şəxslər) arasında uşağın himayədar ailəyə verilməsinə dair müqavilənin bağlanılması.

Himayədar ailə olmaq üçün müraciət edən şəxslərə dair şərtlər aşağıdakılardır:

Qanunvericiliklə müəyyən edilmiş yaş həddi, sağlamlıq, ev şəraiti, gəlir tələblərini ödəyən subay və ya evli Azərbaycan Respublikası vətəndaşları himayədar ailə ola bilərlər. Aşağıdakılar istisna olmaqla, yetkinlik yaşına çatmış, hər iki cinsdən olan, ən azı ümumi orta təhsilli Azərbaycan Respublikasının ərazisində daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları himayədar valideyn ola bilərlər:

Ailədə adambaşına düşən orta aylıq gəliri ailə üzvlərinin hər biri üçün (himayədar ailəyə veriləcək uşaqlar istisna olmaqla) ölkə üzrə müəyyən olunmuş yaşayış minimumunun məbləğindən az olan şəxslər (uşaqların öz qohumlarına himayədar ailəyə verilməsi halı istisna olmaqla);
Himayədar ailəyə veriləcək uşaqla birlikdə yaşayacağı yaşayış sahəsinə tələb yönəldilmiş şəxslər;
Yaşayış sahəsinin adambaşına düşən ümumi sahəsi qanunla müəyyən edilmiş yaşayış sahəsinin ayrılma normasından az olan şəxslər;
Məhkumluğun götürülməsi və ödənilməsi nəzərə alınmadan, sülh və insanlıq, ictimai təhlükəsizlik və ictimai mənəviyyat əleyhinə, həyat və sağlamlıq, şəxsiyyətin azadlığı və ləyaqəti, şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə, yetkinlik yaşına çatmayanlar və ailə

münasibətləri əleyhinə qəsdən törədilən ağır və ya xüsusilə ağır cinayətlərə görə məhkum olunmuş şəxslər və bu cinayətləri törətdiyinə görə barəsində cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilmiş şəxslər;
Barəsində cinayət təqibi üzrə icraat aparılan şəxslər, cinayət təqibi müddətində;
Övladlığa götürməyə, qəyyumluğa və himayəyə qəbul etməyə imkan verməyən xəstəliklərin siyahısı ilə müəyyən edilmiş xəstəlikləri olan şəxslər;
4, 5 və 6-cı bəndlərdə qeyd olunan tələblər eyni zamanda himayədar valideyn olmaq istəyən şəxslə (şəxslərlə) birgə yaşayan (ümumi ev təsərrüfatına malik) şəxslərə münasibətdə də tətbiq edilir. Uşağın qəyyumları (himayəçiləri), bioloji və ya ögey valideynləri himayədar valideyn ola bilməzlər.

Ümumilikdə "Himayədar ailə" qayğı modeli valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqların müqavilə əsasında müvəqqəti ailə yanında yerləşdirilməsini nəzərdə tutan alternativ uşaq qayğı modelidir. "Himayədar ailə" qayğı modelində himayədar ailələr müqavilə əsasında onların yanına yerləşdirilmiş uşaqların qidalanması, təhsili, sağlamlığı, fiziki və əqli inkişafının qeydinə qalır, onların ailə mühitində böyüməsinə şərait yaradır və buna görə dövlət tərəfindən müəyyənləşdirilən stimullaşdırıcı dəstək mexanizmlərindən istifadə edirlər.
Övladlığagötürmədən fərqli olaraq "Himayədar ailə" qayğı modelində uşaq ailə yanında müvəqqəti yerləşdirilir, uşaqla himayədar valideynlər arasında valideynlik münasibətləri yaranmır və uşaq ailənin varisi sayılmır. Uşaqların xoşbəxt və qayğısız gələcəyi üçün onların qayğıya, müdafiəyə, sevgiyə ehtiyacı vardır. Bunlar valideynlik bacarıqları və motivasiyası ilə bağlıdır. Bizim məqsədimiz himayədar ailələri düzgün qiymətləndirib uşağın mənafeyi baxmından daha uğurlu himayədar valideynlərin seçilməsi prosesini təşkil etməkdir.